# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna əlavə edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamənin tələblərinə müvafiq olaraq, gömrük orqanlarına xidmətə qəbul edilən əməkdaşların sağlamlıq vəziyyətinin müəyyən edilməsi, gömrük əməkdaşlarının tibbi xidmətə olan ehtiyaclarının ödənilməsi və tibbi təminatın yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası prezidentinin 2001-ci il 19 iyun tarixli, 510 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi strukturunun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 408) 2-ci bəndində *«Statistika və İnformasiya Texnologiyaları İdarəsi»* sözlərindən sonra *«Tibbi Xidmət İdarəsi»* sözləri əlavə edilsin.

2. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 6 may 2004-cü il.***

***№ 60***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (7 may 2004-cü il, № 106) («VneshExpertService» LLC).***

***Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (31 may 2004-cü il, № 5, maddə 333) («VneshExpertService» LLC).***

---

*© VneshExpertService LLC*